

# BAYAT

№ 46 (627)





Oqtay RZA

## SƏKKİZLİKLƏR

1.

İdrak xəzinədir, min incisi var,
Sözün də kobudu, ən incəsi var.
Filosof babamız nə gözəl deyib:
”Axtar, tapanadək özünü axtar!”

Bağbanam - səhrada çəmən bitirsəm,
Loğmanam - bədbinə təsəlli versəm;
Anadan olduğum gün təzələnər
Ömür yollarımda özümü görsəm...

2.

Dünya, qayğıların daim çox olub!
İnsanın mini ac, onu tox olub;
Silah sərgisinə baxıb deyirəm:
Raketin babası yəqin ox olub.

Əgər dinc yaşasaq biz, Yer kürəsi,
Tapılar ən ağır dərdin çarəsi;
Yox olsun qatil ox, o qatil raket,
Sağ olsun bələdçi ox işarəsi!

3.

Yerin kim bilir ki, içində od var,
Başqa planetlər üçün də od var.
Yer öz buzlarını əritsə hərgah
Suyun hündürlüyü on dəfə artar.

Həyat məhv olmasın Atlantida tək,
Odur ki, mehriban yaşayaq gərək!
İnsanlar yox edib müharibəni,
Yeri dinc buraxaq, hirsləndirməyək!

4.

Sirlər aləmi var anamız Yerin;
On üç iqlimi var anamız Yerin;
Ümid işığını Günəşdən alır,
Bir görün kimi var anamız Yerin!

Davanı öldürmək çağıdır artıq,
Silinsin yollardan çiskin, dumanlıq;
Bir iqlim növü də istəyir cahan;
Adı əbədi sülh, əmin-amanlıq!

5.

Heç vaxt bu gecəni unutmarıq biz:
Salon ağzınadək dopdolu, səssiz;
Bir tarı iki mərd qoşa dindirir -
Biri sol qolsuzdur, biri sağ əlsiz.

Simlərin harayı ucalır göyə -
Dünya səksəkəli yaşasın niyə?
Bir tarı iki mərd qoşa dindirir,
Lənət yağdıraraq müharibəyə.

6.

Qan! Xoşun gəlirmi kim desə ”qan-qan”
Al-qızıl rəngindən yəqin razısan?
Bəlkə insanları qorxutmaq üçün
Bu qədər dəhşətli, qıpqırmızısan?!

Cəllad hökmdarlar, vəzirlər vardı...
Zaman hamısının belini qırdı.
Qan! Sən nə yaxşı ki, yaşıl deyilsən,
Yoxsa qan tökənlər lap çoxalardı!

Dünya ümmanında çox cərəyan var,
İstidir, soyuqdur o cərəyanlar;
Əgər toqquşsalar qılınc tək ölər
Hər iki axında üzən canlılar.

Okean Yer boyda gözün yaşıdır,
Qabarma-çəkilmə iğtişamıdır;
Okean inciməz bu təklifimdən:
Hər nəhrin öz yolu olsa yaxşıdır.

7.

Kim görən ilk dəfə xətrinə dəyib,
Sənə ”Antipodlar adası” deyib?
Yüz milyon yaşın var, amma dalğalar
Sənə indiyədək dinclik verməyib.

Könlümdən keçəni söyləyim yenə
Bütün antipodlar yığışsa sənə,
Yəqin ağırlığa tab gətirməyib,
Batarsan dəryanın dərinliyinə.

8.

Elə bil uca dağ aşıb Arximed -
Nə vaxt sirr qapısı açıb Arximed;
Üzmə qanununu kəşf edən zaman
Uşaq tək sevinib, qaçıb Arximed.

Dünyanın hələ də dərd-səri çoxdur,
Qayğılı axşamı, səhəri çoxdur;
Batan gəmilərin faciəsindən
Yaxşı ki, alimin xəbəri yoxdur!

9.

Təbiət bəxş edib çox sirlər sənə,
Yaraşır mahnılar, şeirlər sənə;
Üç böyük qitənin arxalandığı
Aralıq dənizi deyirlər sənə.

Aralıq dənizi! Xeyirxah insan
Bilir ki, nə üçün bərk nigaransan.
Vaxt gələr, gəmilər silah daşımaz,
Bir daha görməzsən nə qırğın, nə qan.

10.

Baxıram dünyanın xəritəsinə,
İstəyim sinəmə sığışmır yenə
Bütün qitələri gəzib dolaşan
Vətəndaş hüququ verilsin mənə.

Ərzin yaxasında daim gül olsun,
Bəd əməl, pis toxum yanıb kül olsun!
İnsanlar, görüşək meridian tək,
Əqidə yolumuz paralel olsun!

11.

Çoxdan qar görməyən təpə sevindi:
- Qoşqara, Kəpəzə tay-tuşam indi;
Mənim də ağ tacım, ağ örpəyim var
Təpənin dörd yanı düzənlik idi.

Təpəyə dedilər: - Bilirsən nə var?
Gec-tez əriyəcək güvəndiyin qar!
Sən hələ hündürləş, ucal dağ kimi,
Onda həmişəlik papağın olar!

12.

Əzəldən günəşli, nurludur dünya,
Əzəldən qocaman, uludur dünya;
Sayı çoxalsa da pisin, xəbisin,
Yaxşı adamlarla doludur dünya.

Biri mərd, biri sərt, biri fağırdır,
Dünya, çəkdiyin dərd yaman ağırdır!
Yaxşı adamların hamısı ilə
Görüşüb dost olmaq, heyif nağıldır.

13.

Vend çoxdan tərk edib qoca dünyanı,
Hanı ordoviklər, silurlar hanı?
Qıpçaq tayfasından qalmayıb heç kim...
Sonrakı bəndədir sözümün canı.

Meşəyə bənzədək bəşəriyyəti,
Ağac adlandıraq xalqı, milləti;
Türk, ərəb, ingilis, rus, aynu, koryak...
Bütün insanlardı Yerin zinəti.

14.

Dağları sevərmiş gül-çiçək qədər,
Daşlara həsr edib azı yüz əsər;
Lirik şairi də ovsunlayarmış
Bir vaxt oxuduğu mühazirələr.

Görəsən heç qohum-qardaşı yoxdur,
Qəbrini isladan göz yaşı yoxdur?
Daşlar aləmindən kitab yazanın
Hələ indiyədək başdaşı yoxdur!

15.

Nağıllı uşaqlıq dünyamız vardı,
Təndir də ətrini tez-tez yayardı;
Dayımın yeganə oğlu Hikmətə
Anam ilk kökəni bağışlayardı.

Ürək hey döyünür səxavət ilə,
Yanır son anadək dönmədən külə;
Özü sol tərəfdə yerləşib, fəqət
Gücünün çoxunu verir sağ ələ!

16.

Dağların döşündə gur ocaq yanır,
Titrək ziyasını saçaraq yanır;
Sönmək istəməyir bir anlıq da o,
Qəlbini çöllərə açaraq yanır.

Alışır gəncliyin ilhamı kimi,
Babamın hikmətli kəlamı kimi;
Səpir işığını qaranlıqda o,
Günəşin, həyatın davamı kimi.

17.

Mərifət-nur, işıq, nadanlıq-bəla.
Yaxşı söz oxşayır şəkərə, bala.
Bir Sona xalamız vardı... Deyərdi:
- Sinəndə ağ tüklər bitsin, ay bala!

Rəisin sifəti qırışdı yenə,
”Aydın, familiyan?” - soruşdu yenə;
Dərhal xatırladım Aslan babanı
- Ay oğlu, ismini bağışla mənə.

18.

Quşların cəh-cəhi ucalır göyə,
Enir dik yoxuşa, dərin dərəyə;
Bülbül bildirçindən narazı deyil,
Sığırçın ”sus” demir alacəhrəyə.

Danışan yoldaşlar! Sakitlik yayaq,
Əsəb telimizi gəlin qırmayaq!
Meşə quşlarının konserti ilə
Gəlin bu iclası qarışdırmayaq!

19.

Dünyanın ən gözəl daşıdır almaz,
Hələ bərklikdə də tayı tapılmaz.
Qrafit min dəfə kövrəkdir ondan,
Götür zərrəsini, ağ kağızı yaz!

Nə qədər sirr, düyün açılır gündə,
Vətəndaş, kəşf eylə özünü sən də!
Mineral deyilsən, adamsan. Bacar,
Gah sərt, gah yumşaq ol yeri gələndə!

20.

Məqsəd xatirinə səmti əyənsən,
Dünən ”sevdiyin”i bu gün söyənsən;
”Çəkin Xəzanini” kənara, əvvəl
”Məni çap eləyin, məni!” deyənsən.

Az deyil müəmma, möcüzə, tilsim...
Gərək hər istedad parlaya bilsin!
Günəş meydanını dəyişir axşam -
Ay da, ulduzlar da nur yaya bilsin!

21.

Olub səxavətli, vəfalı kimi,
Göstərir özünü həyalı kimi;
İçində qaranlıq gəzdirən kəsi
Hələ tanıyırlar ziyalı kimi.

Elə də mötəbər, zor işi yoxdur,
Nəinki sabahı, keçmişi yoxdur!
Protez çənəli bədxahın, allah,
Yaxşı ki, ağzında öz dişi yoxdur!

22.

Şahlığı saxlamaq mümkün deyildi,
Şah qaçdı ölkədən, qürbətdə öldü;
Elin sərvətini, xalqın malını
Zalım, özgələrlə, yadlara böldü.

Düz yüz il yaşadı xarrat Şahbala
Çəkdiyi zəhmətdən zövq ala-ala
Şahmat-əbədilik zəka oyunu,
Şahmat minilliklər salacaq yola.

23.

Sinəmdə Sumqayıt, Şəki yerləşir;
Sədərək, Xocalı, Ləki... yerləşir.
Bir ulduz tapılıb - hər qırımında
Üç-dörd planetin yükü yerləşir.

Haray! İçimdəki sədamısan sən?
Muğam! Doymadığım qidamısan sən?
Sadə, təvazökar, bəstəboy igid!
Dünyanın çox ağır adamısan sən!